Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi



# İXRAC İCMALI

Mart 2022

www.ereforms.gov.az
info@ereforms.gov.az

Azərbaycan dünya miqyasında o ölkələrdəndir ki, ölkəmizdə xarici dövlət borcu çox aşağı səviyyədədir.

Bu ilin iki ayında ümumi daxili məhsul 6,7 faiz, qeyri-neft sektoru 10,1 faiz, qeyri-neft sənaye istehsalı təxminən 21 faiz artmışdır. Bütün bunlar postpandemiya dövründə əldə edilmiş nailiyyətlərdir və onu göstərir ki, Azərbaycanda aparılan islahatlar, sənayeləşmə siyasəti, biznes mühitinin yaxşılaşdırılması və xarici sərmayənin cəlb edilməsi istiqamətində doğrudan da təqdirəlayiq addımlar atılır.



**Azərbaycan Respublikasının Prezidenti**
**cənab İlham Əliyevin**
**2022-ci il mart ayının 15-də**
**Qaradağ Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimində çıxışından**

# MÜNDƏRİCAT

2022
İXRAC İCMALI
mart

Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ______ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ______ səh. 12

Qeyri-rezidentlər tərəfindən aparılan bank əməliyyatları haqqında məlumat ______ səh. 15

Azexport.az portalına daxil olan sifarişlər haqqında məlumat ______ səh. 17

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən qeyri-neft ixracı haqqında məlumat ______ səh. 20

# 1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT



## 2022-ci ilin yanvar-fevral ayları ərzində **6 milyard ABŞ dolları** dəyərində mal ixrac olunmuşdur

## 2022-ci ilin fevral ayında qeyri-neft sektoru üzrə ixrac **461,8 milyon ABŞ dolları** təşkil etmişdir

2022-ci ilin yanvar-fevral ayları ərzində Azərbaycanın ixracı **6 mlrd. ABŞ dolları**, qeyri-neft sektoru üzrə **461,8 mln. ABŞ dolları** təşkil edib. Qeyri-neft sektoru üzrə ixrac 2021-ci il ilə müqayisədə 130,6 mln. ABŞ dolları və ya 39,4% artıb.

2022-ci ilin meyvə-tərəvəz məhsulları ötən ilin eyni dövrü ilə müqayisədə 21,9 mln ABŞ dolları artaraq 92,3 milyon ABŞ dolları təşkil edib. Müvafiq dövr ərzində kimya sənayesi məhsullarının ixracı 9 dəfə, alüminium və ondan hazırlanan məmulatların ixracı 57,4%, pambıq lifi ixracı 38,3%, pambıq ipliyi ixracı 35,2%, qara metallar və onlardan hazırlanan məmulatların ixracı isə 16,5% artıb.

Normallaşma prosesinin davam etdiyi dövrdə 2022-ci ilin fevral ayı üzrə ixrac **2,9 mlrd ABŞ dolları** təşkil edib. Qeyri-neft sektoru üzrə ixracda artım 24% təşkil

etməklə **229,6 mln ABŞ dolları** olub. 2022-ci ilin fevral ayı ərzində yeyinti məhsulları üzrə ixrac ötən ilin müvafiq ayı ilə müqayisədə 19,4% artaraq 51,7 milyon ABŞ dolları, qeyri-yeyinti məhsulları üzrə isə 25,4% artaraq **177,9 milyon ABŞ dolları** təşkil edib.

2022-ci ilin yanvar-fevral ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı (51,1 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda karbamid (29,3 milyon ABŞ dolları) ikinci, qabığı təmizlənmiş meşə fındığı (28,6 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2022-ci ilin yanvar-fevral ayları ərzində Türkiyəyə 153,3 milyon ABŞ dolları, Rusiya Federasiyasına 119,1 milyon ABŞ dolları, Gürcüstana 28,1 milyon ABŞ dolları, İsveçrə Konfederasiyasına 21 milyon ABŞ dolları və İtaliyaya isə 19,4 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2022-ci ilin fevral ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Türkiyə (82,7 milyon ABŞ dolları) birinciliyə yüksəlib. Bu siyahıda Rusiya Federasiyası ikinci (48 milyon ABŞ dolları) və Gürcüstan üçüncü (13,6 milyon ABŞ dolları) olub.

2022-ci ilin fevral ayında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı (28,9 milyon ABŞ dolları) birinci, elektrik enerjisi (16 milyon ABŞ dolları) ikinci və karbamid (14,7 milyon ABŞ dolları) üçüncü olub.



# 2022-Cİ İLİN YANVAR-FEVRAL AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2021-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2021 İXRAC İCMALI mart

+39,4%

| 2021 | 2022 |
|---|---|
| 331,2 mln | 461,8 mln |



# 2022-Cİ İLİN FEVRAL AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2021-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2022-Cİ İLİN FEVRAL AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2021-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2022-Cİ İLİN YANVAR-FEVRAL AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2022
İXRAC İCMALI
mart



# 2022-Cİ İLİN FEVRAL AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2022-Cİ İLİN YANVAR-FEVRAL AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2022 İXRAC İCMALI mart

| | 2022 | 2021 |
|---|---|---|
| Pambıq mahlıcı | 51,1 | 37,1 |
| Karbamid | 29,3 | 1,7 |
| Meşə fındığı | 28,6 | 18,8 |
| Xurma | 27,2 | 27,9 |
| Tomat (pomidor) | 24,5 | 14,2 |
| Metanol (metil spirti) | 23,8 | 0 |
| Qızıl | 20,4 | 34,4 |
| PE Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 19,8 | 15,3 |
| PP İlkin formalı polipropilen | 17,8 | 19,8 |

# 2022-Cİ İLİN FEVRAL AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| | 2022 | 2021 |
|---|---|---|
| Pambıq mahlıcı | 28,9 | 22,9 |
| Elektrik enerjisi | 16 | 15,7 |
| Karbamid | 14,7 | 0,7 |
| Qızıl | 13 | 24,7 |
| Meşə fındığı | 12,7 | 8,6 |
| Metanol (metil spirti) | 11,9 | 0 |
| Tomat (pomidor) | 10,8 | 7,4 |
| Xurma | 10 | 11,2 |
| PE Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 8,3 | 8,4 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2022-ci ilin yanvar-fevral ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "MKT İstehsalat Kommersiya" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "P-Aqro" MMC, "Aqrovest" MMC, "Çinar Aqro" MMC, "Product Service" MMC, "Almeyvə" MMC, "ZR-78 Company" MMC, "AzMet" QSC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Socar Polymer" MMC, "Azəralüminium" MMC, "Azərenerji" ATSC", Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "AzerGold" QSC, "Azəripək" MMC, "Geofizika və Geologiya İdarəsi", "Azərbaycan Dəmir Yolları" QSC, "Azərbaycan Hava Yolları" QSC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2022-Cİ İLİN YANVAR-FEVRAL AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2022
İXRAC İCMALI
mart



# 2022-Cİ İLİN YANVAR-FEVRAL AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)




* "SOCAR Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisədir

** «AzərGold» QSC-nın təqdim etdiyi rəqəmlər əsasında

4

# QEYRİ-REZİDENTLƏR TƏRƏFİNDƏN APARILAN BANK ƏMƏLİYYATLARI HAQQINDA MƏLUMAT



## 2022-ci ilin yanvar-fevral ayları ərzində Azərbaycana gələn xaricilər bank kartları vasitəsi ilə 391,2 milyon manatlıq əməliyyat aparmışlar

Koronovirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməyib.

2022-ci ilin fevral ayında xarici vətəndaşların bank kartları vasitəsi ilə ölkəmizdə apardıqları əməliyyatların həcmi **186,5 milyon manat** təşkil edib. 2022-ci ilin yanvar-fevral aylarında isə əcnəbilər bank kartları vasitəsi ilə **391,2 milyon manatlıq** əməliyyat aparıblar.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN BANK KARTLARI VASİTƏSİ İLƏ APARDIQLARI ƏMƏLİYYATLAR (milyon manatla)

| | 2020 | 2021 | 2022* |
|---|---|---|---|
| Yanvar | 85,2 | 72,2 | 204,7 |
| Fevral | 72,9 | 112,2 | 186,5 |
| Mart | | | |
| Aprel | | | |
| May | | | |
| İyun | | | |
| İyul | | | |
| Avqust | | | |
| Sentyabr | | | |
| Oktyabr | | | |
| Noyabr | | | |
| Dekabr | | | |
| | **158,1 mln** | **184,4 mln** | **391,2 mln** |

* Mərkəzi Bankın 2022-ci il üçün yenilənmiş statistikası əsasında

5

# AZEXPORT.AZ PORTALINA DAXİL OLAN SİFARİŞLƏR HAQQINDA MƏLUMAT

## Portala daxil olan ixrac sifarişlərinin ümumi dəyəri 2 milyard 804 milyon ABŞ dolları təşkil etmişdir

2022-ci ilin fevral ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri **38,7 milyon ABŞ dolları** təşkil edib.

2022-ci ilin yanvar-fevral aylarında Azexport.az portalına **83,9 milyon ABŞ dolları** dəyərində ixrac sifarişləri daxil olub. 2022-ci ilin fevral ayında Azexport.az portalına ən çox ixrac sifarişi tütün, pambıq lifi, pambıq yağı, pambıq çiyidi, nar şirəsi, alma, şərab, toyuq əti, toyuq yumurtası, şəkər, fındıq və s. mallara daxil olmuşdur.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2022-ci ilin 28 fevral tarixinə kimi (62 ay ərzində) Azexport.az portalına dünyanın 145 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri **2 milyard 804 milyon ABŞ dolları** təşkil edib.

# AZEXPORT.AZ PORTALINA DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN MƏBLƏĞİ
(milyon ABŞ dolları ilə)









# 2022-Cİ İLİN FEVRAL AYINDA AZEXPORT.AZ PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

2022 İXRAC İCMALI mart



6

# “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN QEYRİ-NEFT İXRACI HAQQINDA MƏLUMAT

## 2022-ci ilin mart ayında “Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən 24,3 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə 2022-ci ilin mart ayı ərzində 36 hüquqi və fiziki şəxslər tərəfindən **168 dəfə** müraciət daxil olunub. Ümumilikdə 318 ədəd sertifikat (90 ədəd mənşə, 20 ədəd baytarlıq, 192 ədəd fitosanitar, 16 ədəd CİTES) verilib.

Cari ilin mart ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə **24,3 milyon ABŞ dolları** dəyərində ixrac həyata keçirilmişdir. Hüquqi və fiziki şəxslər tərəfindən qiymətli metallar, qurğuşun, pambıq mahlıcı, pambıq çiyidi, biyan kökü, yemlik arpa, nar, yeşiklərdə yerləşdirilmiş fermentləşdirilmiş çay, pendir, kərə yağı, tibbi zəli, iribuynuzlu heyvan dərisinin sənayedə kəsilməsi nəticəsində yığılan faydasız tullantılar,iribuynuzlu heyvanın daxili orqanları, dondurulmuş toyuq ayaqları, balıq kürüsü, qarğıdalı nişastası, istifadə edilmiş karton, dondurma məhsulu, dondurma məhsulu üçün vafli, nar, alma, albalı, qarışıq şirələr, nar arağı, çaxır, qərənfil, kəsilmiş zanbaq, siqaret, polad boru, polad armatur yayması, taxta palet, qarabaşaq, lobya, taxta ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında pambıq mahlıcı, polad boru, yeşiklərdə fermentləşdirilmiş qara çay, meyvə şirələri, yemlik arpa ixracı üstünlük təşkil etmişdir. Sertifikat verilən məhsullar İsveçrə, İraq, Sinqapur, Türkiyə, Rusiya,İran, Gürcüstan, Almaniya, Malayziya, Qazaxıstan, İsrail, Fil Dişi Sahili, Özbəkistan, Belarus, BƏƏ, Avstraliya, ABŞ, Oman, Polşa, Qırğızıstana ixrac edilmişdir.

İxrac statistikasına nəzər yetirdikdə 2021-ci ilin mart ayı ilə müqayisədə ixracda **32,1%** artım müşahidə olunmuşdur.



# 2022-Cİ İLİN MART AYINDA “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI

(milyon ABŞ dolları ilə)





**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**“BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
“İxrac İcmalı” jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az

/iqtisadiislahat